

# PLATON

# Dövlət

> *Tanrı... nəticədə tək bir taxtı, ilk nümunə olan əsl taxtı (İdeya olan taxtı) yaratmışdır. Başqa sözlə, iki və ya daha çox sayda taxt Tanrı tərəfindən yaradılmamışdır və gələcəkdə də yaradılmayacaqdır.*

*Onuncu kitab*

1

- Sözün davamında dedim: "Qurduğumuz dövlətin nə qədər düzgün olduğunu digər fikirlərimizlə yanaşı, bir o qədər də ədəbiyyat (şeir-faciə) sənəti haqqında söylədiklərimiz göstərir".

- Necə yəni? - Qlavkon soruşdu.

- Təqlid etdiyinə görə ona heç vaxt yer vermədiyimiz üçün. Düşünürəm ki, hər hansı bir sənətin heç bir şəraitdə dövlətə qəbul edilməməsi gərəkdir, bunun səbəbi ruhun bölümlərini qəti şəkildə bir-birindən ayırdığımız üçün indi daha aydın görünür.

- Demək istədiyin nədir?

- Aramızda qalsın - yəqin ki, məndən nə faciə yazanlara, nə də başqa yazıçılara şikayət etməyəcəksiniz - bütün yazarların bilikləri arasında ədəbiyyatın əsl xarakteri haqqında yaxşılığa aparan bir əlac yoxdursa, bütünlüklə ədəbiyyat mənə dinləyicilərin ruhunun (zehnin) zəhəri kimi görünür.

- Bu sahədə düşüncə tərzin maraqlıdır!

- Əslində, bunu elə indi deməliyəm. Di gəl ki, uşaqlıqdan Homerə bəslədiyim sevgi və sayğı danışmağıma mane olur. Çünki o, aralarında bütün gözəl faciə yazan şairlərin də olduğu hər kəsin ilk müəllimidir. Lakin insanı həqiqətdən yüksəyə qoymaq olmaz. Bax mən bunu demək istəyirəm.

- Əlbəttə.

- Onda dinlə, amma mənə tez-tez cavab ver.

- Soruş.

- Təqlidin nə olduğunu ən ümumi şəkildə mənə izah edə bilərsənmi? Bu mövzu ilə bağlı mənim özümün də düşüncələrim qarışıqdır.

- Sənin fikrin qarışıqdırsa, bu mövzuda mən açıq düşünə bilərəmmi?

- Bu, heç də qəribə sayılmamalıdır: axı çox zaman zəif görən adam itigözlü adamın görə bilmədiyini ondan tez görür.

- Elədir. Ancaq sən dura-dura mənim ağlıma bir şey gəlsə belə, sənin yanında heç nə demək istəməzdim. Buna sən özün bax.

- Bu məsələni aydınlaşdırmağa adət etdiyimiz bir üsulun köməyi ilə buradan başlamaq lazım gəlir: tək bir adla adlandırdığımız çoxlu sayda şeyləri tək bir *ideya* altında toplamağa adət etmişdik. Anlayırsanmı?

- Anlayıram.

- İndi bir neçə təsadüfi şey götürək: məsələn, çoxlu sayda masa və divan var...

- Elədir.

- Ancaq bu iki (qrup) şey üçün cəmi iki *ideya* var - bir masa *ideyası*, bir də divan (taxt) *ideyası*.

- Razıyam.

- Amma, biz, adətən, deyirik ki, usta bu və ya digər əşyanı, istifadə etdiyimiz masaları, buradakı divanı və bizə lazım olan bunlara bənzər başqa şeyləri onların *ideyasına* əsasən istehsal edir, çünki birbaşa *ideyanın* özünü heç bir usta istehsal edə, yarada bilməz, belə deyilmi?

- Bu, heç mümkün deyil!

- İndi bax: bu sənətkara nə ad verəcəksən?

- Hansına?

- Hər bir sənətkarın ayrı-ayrılıqda istehsal etdiyini təkbaşına yaradana?

- Güclü, qüdrətli, heyranlıq doğuran mahir bir usta!

- Bu hələ harasıdır! Az sonra ona daha çox heyran qalcaqsan: çünki həmin usta hər cür aləti, ləvazimatı istehsal etməklə qalmır, torpaqda bitən hər şeyi yaradır, bütün canlı varlıqları, özünü, üstəlik yeri, göyü, tanrıları və səmada, yer altında, Aiddə nə varsa hamısını o, yaradır.

- Sən qüdrətli bir sehrbazdan danışırsan, hər halda!

- İnanmırsanmı? Söylə, belə ustanın var olduğunu qeyri-mümkünmü hesab edirsən, yoxsa onun müəyyən mənada hər şeyin yaradıcısı olduğunu, müəyyən mənada da yaradıcısı olmadığını deyirsən? Ya da sən özün müəyyən bir mənada bütün bunları edə biləcəyinin fərqindəsən?

- Hansı mənada?

- Bu çətin iş deyil, tez-tez baş verən bir şeydir. Ən tezi də bunu bir güzgü götürüb ətrafa dolandırmağa başlamaqla edə bilərsən. Dərhal Günəşi yarada biləcəksən, yerdəki və göydəki hər şeyi, sən özünü və başqa canlı varlıqları, həmçinin əşyaları, bitkiləri və bayaqdan haqqında danışdığımız hər şeyi.

- Elədir, ancaq bunlar həqiqi varlıqlar olmyacaq, onların surətləri olacaq.

- Çox gözəl. Məsələnin tam sənə aid olan yerinə gəlib çıxırsan indi. Çünki bu cür sənətkarların sırasına rəssam da daxildir. Elə deyilmi?

- Şübhəsiz!

- Mənə etiraz edib deyəcəksən ki, amma onun yaratdıqları gerçəkdən də var olmaz; halbuki rəssam da müəyyən mənada taxt yaradır. Məgər belə deyilmi?

- Bəli, hansı görünüşdə bir taxt olsa belə!

2

- Bəs xarrat necə? İndicə deməsdinmi ki, o taxtın *ideyasını*, yəni həqiqətən də insanın bilgisindən asılı olmayaraq mövcud olan taxt mənasındakı *ideyasını* deyil, hər hansı bir taxt yaradır?

- Bəli, dedim.

- Bir halda ki, xarrat insanın bilgisindən asılı olmayan mütləq bir şeyi yaratmır, deməli, onun yaratdığı sadəcə həqiqətən mövcud olana bənzəyir. Ancaq biri durub xarratın, yaxud hər hansı başqa bir sənətkarın yaratdığı əşyanı kamil gerçəklik sayarsa, aydındır ki, dedikləri doğru olmayacaq.

- Bəli, ən azından, bu cür təhlillər aparmağa adət etmiş insanların anlayışına görə!

- Elə buna görə də belə bir çalışma həqiqətlə müqayisədə tək bir hissəni təmsil edən bir əşyadan ibarətdirsə, gərək buna təəccüb etməyək.

- Əlbəttə!

- Bu nümunə əsasında həmin təqlidçinin özünü izah etməyə çalışaqmı?

- Lütfən, buyur!

- Fərz edək ki, üç taxt var: biri həqiqi var olan, düşünürəm ki, onu Tanrı yaratmışdır. Başqa kim yarada bilər ki?

- Başqa heç kim ola bilməz!

- O biri xarratın istehsalıdır.

- Elədir.

- Sonuncusu da rəssamın yaratdığıdır, elə deyilmi?

- Elədir.

- Rəssam, xarrat və Tanrı - bax, bu üç növ taxtın ustalarıdır.

- Elədir!

- Tanrı istər bunu yaratmağı istəmiş olsun, istər istəməmiş olsun, istərsə də məcburi bir zərurətin təzyiqi ilə tək bir taxt yaratmaq məcburiyyətində qalmış olsun - nəticədə tək bir taxtı, ilk nümunə olan əsl taxtı (İdeya olan taxtı) yaratmışdır. Başqa sözlə, iki və ya daha çox sayda taxt Tanrı tərəfindən yaradılmamışdır və gələcəkdə də yaradılmayacaqdır.

- Necə yəni?

- Ona görə ki, əgər iki taxt yaratmış olsaydı belə, yenə də onlar tək bir dənə olacaqdı: digərləri öz formaları-

nı bu təkdən alacaqdı; başqa sözlə, bütün bu taxtların içində yalnız bir dənəsi həqiqətən mövcud olan taxt ola bilərdi, iki dənəsi yox!

- Doğrudur.

- Tanrı bunu bildiyindən və hər hansı bir taxtın yaradıcısı və ya xarrat olmaq istəməyib, tək, həqiqi bir taxtın yaradıcısı olmaq niyyətində olduğundan onu bir dəfə, taxtın əsl, ilk nümunəsi formasında yaratmışdır.

- Belə görünür...

- Belədirsə, biz onu əslin yaradıcısı adlandıraq, yoxsa ona buna bənzər başqa bir ad verək?

- Bu cür adlandırmaq düzgün olardı, çünki o, həm bu şeyin, həm də başqa hər şeyin əslini yaratmışdır.

- Bəs biz xarratı necə adlandıraq? Taxt sənəti ustasımı adlandıraq?

- Adlandıraq.

- Onda bəs rəssamı - onu da bu şeylərin yaradıcısımı adlandıraq?

- Qətiyyən ola bilməz!

- Bəs onda rəssamın taxtla münasibətinə nə ad verə bilərik?

- Ona ustaların məhsullarının təqlidçisi kimi ən münasib ad qoya bilərik.

- Yaxşı. Deməli, məhsulları, əsli ilə əlaqədar formanı nəzərə alaraq qiymətləndirəndə üçüncü növ əsərlərin yaradıcısını da təqlidçi adlandırırsan?

- Bəli.

- Bu halda təqlidçi olduğu ölçüdə və həqiqəti nəzərə alıb, oradan baxdıqda (ideyaların yaradıcısı birinci kraldırsa) faciənəvis üçüncü kraldır və bütün digər təqlidçilər də belədir.

- Belə görünür!

- Beləliklə, təqlidçilər barədə fikrimiz birdir. Bəs rəssam barədə mənimlə həmfikir olduğunu söyləyə bilərsənmi? Səncə, o əsl olanı təqlid etməyə çalışır, yoxsa sənətkarların yaratdıqlarını?

- Sənətkarların yaratdıqlarını təqlid edir.

- Bəs onları olduqları kimi təqlid edir, yoxsa özünün gördüyü kimi?

- Necə yəni?

- Bax, bu mənada: istənilən bir taxta yandan, qarşıdan və ya hər hansı başqa bir tərəfdən baxılanda taxt fərqli görünür, elə deyilmi? Əslində, onun özü olduğu kimi qalır, ancaq görüntüsü fərqli şəkildə olur, elə deyilmi? Bu, başqa hər şeyə də aiddir.

- Elədir. Özü dəyişmədən fərqli görünüşlər verir.

- Yaxşı, indi də bunu düşün. Digər şeylərlə müqayisədə rəsm bizdə nə cür münasibət oyadır? Rəssam rəsm təqlidini gerçək varlığa (mütləq mövcud olanın ideyasına) əsasən yaradır, yoxsa onun görünüşünə əsasən? Başqa sözlə, rəssamın yaratdığı gerçəkliyin təqlididir, yoxsa görünüşün rəsmidir?

- Görünüşün rəsmidir.

- Deməli, təqlid sənəti gerçəklikdən çox-çox uzaqdır. Elə bu səbəbdən də hər şeydən bir az pay götürdüyünə və bu da həmin şeyin yalnız görünüşü olduğuna görə qarşısına gələn hər şeyi təqlid edir. Məsələn, rəssam çəkməçinin, xarratın, başqa ustaların şəklini çəkir, özü isə o ustalar haqqında heç nə bilmir. Lakin o, yaxşı rəssam olsa, xarratın şəklini çəkib müəyyən bir məsafədən göstərəndə yalnız uşaqları və ya sadəlövh adamları çaşdıra bilər, onlar gördüklərinin əsl xarrat olduğuna inana bilərlər.

- Əlbəttə.

- Lakin, dostum, bunu heç yaddan çıxartmamaq lazımdır: biri durub bütün sənətlərdən başı çıxan və ya tək-tək sənətlər haqqında hər kəsin bildiklərindən daha artıq bilən birinə rast gəldiyini iddia edəcək olsa, onun sözünü kəsib, hiyləgərliyi və təqlidçiliyi tam aydın olan biri ilə qarşılaşmış sadəlövh insan olduğunu, elə buna görə də özü bilgini bilgisizlikdən və təqliddən ayırd edə bilmədiyi üçün başqasını hər şeyi bilən kimi qəbul etdiyini onun üzünə deməyimiz lazım gəlir.

- Tamamilə doğrudur.

### 3

- Beləliklə, - sözümə davam etdim, - bundan sonra faciəni və onun banisi Homeri təhlil etmək istəyirik, çünki çoxlarından eşitmişik ki, faciə şairləri guya bütöv sənətlərə, bütün fəzilətli və alçaq insani işlərə, lap elə ilahi işlərə də bələddirlər. Axı yaxşı şair gözəl bir əsər yaratmaq istəyirsə, bunu yalnız bilgi sayəsində edə biləcəyini, buna başqa cür nail ola bilməyəcəyini söyləyirlər. Bu halda düşünməyimizə ehtiyac var: həmin sadəlövh insanlar onlara urcah olan təqlidçilər tərəfindən aldanılmamışlarmı və təqlidçilərin əsərlərinə baxarkən bu əsərlərin həqiqi varlıqlardan üç pillə uzaq və həqiqətdən xəbərsiz adamlar üçün asan düzəldilə biləcək bir şey olmadığının fərqindədirlərmi; çünki yazıçılar həqiqi deyil, sadəcə, görünüşü ifadə edən aldadıcı surətlər yaradırlar, yazıçıların bilgi sahibləri olduqları irəli sürülərkən onların haqlı olub-olmadıqlarını, yazıçıların da haqqında geniş kütlələrə gözəl sözlər söylədikləri şeylərlə bağlı həqiqi bilik sahibi olub-olmadıqları barədə düşünməyimiz lazımdır.

- Bəli, bunu dərindən-dərinə təhlil etməyə dəyər.

- Amma kimsə hər ikisini - həm "ilk şeyi", həm də onun görünüşünün surətini yarada bilirsə, səncə, bütün varlığı ilə özünü görünüşün surətini yaratmaq sənətinə həsr edib bunu sahib olduğu ən gözəl şey kimi həyatının məqsədinə çevirirmi?

- Düşünmürəm.

- Əgər o təqlidini etdiyi şeyin mahiyyətindən xəbərdar olsa, bu halda onların təqlidi ilə deyil, özü ilə əlləşib, özündən bir çox gözəl şey yadigar qoymağa çalışar və başqalarını tərifləyən insan olmaqdan çox, özünün təriflənən insan olmağını seçərdi, elə deyilmi?

- Mən də elə düşünürəm! Çünki faydalı olmaqla məşhur olmaq tamamilə fərqli şeylərdir!

- Əgər həkimliklə bağlı faydalı olduğu qəbul edilən adam sadəcə həkimlik dilinin təqlidçisi deyil, həkimlik sənətinə həqiqətən hakimdirsə, Eskulapın etdiyi kimi, həm qədimdə, həm də sonradan insanlara sağlamlıq gətirər, ya da öz ardıcıllarını yetişdirərdi. Onun həkimlik sənətində hansı tələbələri yetişdirdiyini soruşub, ondan hesabat istəyərdik. Ancaq Homerdən və ya digər yazıçılardan başqa sahələrə aid hesabat istəmirik; eyni şəkildə başqa sənətləri nəzərdə tutaraq belə bir sual vermək niyyətimiz də yoxdur; bunu bir kənara qoyuruq. Lakin ən böyük və gözəl iş, Homerin bəhs etməyə çalışdığı mövzularda: müharibələr və səyahətlər, dövlətlərin idarə edilməsi, insanların yetişdirilməsi və tərbiyə olunması haqqında - bax, bu mövzularda ona sual vermək yerinə düşəcəkdir: "Əziz Homer, həqiqət yönündən baxıldıqda mükəmməllik cəhətdən üçüncü yerdə olan, yalnız görünüşün surətinin yaradıcısı, başqa sözlə, bizim müəyyənləşdiridiyimizə görə də sadəcə təqlidçi deyilsən, yəni həqiqət yönündən baxdıqda ikincisən, bu baxımdan da insanların istər özəl-fərdi, istərsə də rəsmi-ictimai həyatlarında hansı yaşayış formalarının onları daha yaxşı, ya da daha pis edəcəyini biləcək qabiliyyətin varsa, o zaman sənin sayəndə hansı dövlət yaxşı günə çıxdı? Məsələn, Likurqun sayəsində Lakedemon dövləti kimi və ya bir çox başqalarının sayəsində digər dövlətlər kimi? Hansı dövlət səni ən faydalı qurucusu və ya təşviq edicisi kimi qəbul edir? Bu vəziyyətdə İtaliya və Siciliya Xarondun, biz də Solonun adını anırıq. Bəs sənin adını kim xatırlayır? Homerin adını xatırlaya biləcək biri varmı görəsən?

- Düşünmürəm. Heç Homerin tələbələri də onu anmırlar.

- Bəs kimsə Homerin zamanında baş vermiş, onun rəhbərliyi altında və ya onun məsləhətləri sayəsində qələbə ilə başa çatmış bir müharibənin adını çəkə bilərmi?

- Xeyr!

- Bəs əməli işlərdə miletli Fales və skif Anaxarsis kimi sənət sahəsində xeyirliklə anılan bir kəşf və ya başqa praktik şeylər ortaya qoymuş olduğunu söyləyən varmı?

- Haradan var?

- Yoxsa Homer rəsmi (ictimai) həyatda olmasa belə, özünün fərdi, özəl həyatında, onu ətrafına və əlaqələrinə görə sevib sayan və özlərindən sonra dünyaya homerçi hir həyat sistemi qoyan insanlarmı yetişdirmişdir? Bax, elə bu səbəbə görə Pifaqor hörmətlə yad edilir. Pifaqorun tələbələri hələ bu gün belə pifaqorçu bir həyat nizamından bəhs edir və bu xüsusiyyətlərinə görə başqalarından fərqlənirlər.

- Belə bir şeyi eşidən yoxdur, əziz Sokrat. Homer haqqında danışılanlar doğru olarsa, Homerin yoldaşı Kreofil, öz adından artıq Homerdən aldığı tərbiyəyə görə bizə çox gülünc görünəcəkdir, yaşadığı dövrdə Homerin öyrətdiklərini bəyənməyərək ona kobudluqla əhəmiyyət vermədiyini söyləyirlər.